# Yaradıcılıq uğurları arzulayıblar





***Qəbələ Mədəniyyət Mərkəzində yerli yazar Nargilə Rəhmanın «Ecoprint» nəşriyyatında dərc olunmuş "Xoşbəxtliyin ətri" kitabının təqdimatı olub.***

***Təqdimat mərasimində rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, Respublikanın Xalq artisti Mircavad Cəfərov, Əməkdar artistlərdən Təhmiraz Şirinov, Əbülfət Oğuz, Nizami Əsgərov, qəbələli yazarlar, rayonun ziyalıları, və digər qonaqlar iştirak ediblər.***

Tədbirin aparıcısı sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı kitab haqqında və müəllifin yaradıcılığı barədə geniş məlumat verib. O, bildirib ki, Nargilə Rəhmanın (Qafarova) sayca birinci kitabı olan "Xoşbəxtliyin ətri"ndə müxtəlif janrlarda şeirlər var. Lakin əsasən lirik şeirlərinin çoxluq təşkil etdiyi bu kitabda dürüstlük, sevgi, sədaqət, ülvi məhəbbət hissləri poetik notlarla, yeni çalarlarla oxuculara çatdırılır.

Qeyd olunub ki, bu şeirlərin hər birində Nargilə xanımın vətəndaşlıq mövqeyi, doğma yurda tükənməz sevgisi boy verməkdədir. Bütün bunlar deməyə əsas verir ki, kitab öz müəllifinə böyük və tükənməz sevgi qazandıracaq.

İştirakçılara Nargilə xanımın həyat yolu haqqında videoçarx nümayiş etdirilib.

Tədbirdə Əməkdar artistlərdən Təhmiraz Şirinovun, Əbülfət Oğuzun, Nizami Əsgərovun ifaları böyük və coşğulu alqışlarla qarşılanıb. Eyni zamanda Nizami Əsgərovun Nargilə Rəhmanın şeirlərinə bəstələdiyi mahnılar, musiqisi və sözləri Nargilə xanıma məxsus melodiyalar Əbülfət Oğuzun və qəbələli musiqiçilərin ifasında səsləndirilib.



Xalq artisti Məleykə Əsədovanın ifa etdiyi müəllifin "Mənim tənha yalnızlığım" şeiri tədbir iştirakçılarını duyğulandırıb.

Nizami Əsgərov "Cabir Novruz" Mədəniyyət Fondunun Fəxri fərmanını, AYB-nin regional bölməsinin rəhbəri Vüsal Oğuz isə KİV işçiləri həmkarlar ittifaqı rəyasət heyətinin "Qızıl qələm" media mükafatı laureatı diplomunu Nargilə Rəhmana təqdim edib.

Digər çıxış edənlər "Xoşbəxtliyin ətri" kitabında Nargilə Rəhmanın poetik düşüncələrinin çağdaş ədəbiyyatımızda yeni və orijinal olduğunu bildirərək ona yaradıcılıq uğurları arzulayıblar.

Sonda tamaşaçıları maraqlandıran suallar cavablandırılıb.

Tədbiri Səadət Təhmirazqızı yekunlaşdırıb.

**Anar RÜSTƏMLİ,**
**sənətşünas.**

# Seminar-məşğələlər keçirilib

***116 saylı Qəbələ Seçki Dairəsi tərəfindən keçirilən maarifləndirmə məşğələlərinə dairə seçki komissiyasının üzvləri və məntəqə seçki komissiyalarının sədrləri cəlb edilib.***



Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" əsasında təşkil olunan və üç gün davam edən kurslar dairə seçki komissiyası üzvlərinin və məntəqə seçki komissiyaları sədrlərinin peşəkarlıq səviyyəsini artırmaq məqsədi daşıyır.

Məşğələlərdə Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucovun, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanovanın, rayon məhkəməsinin sədri Abbas Əliyevin, rayon prokuroru Məqsəd Orucovun, rayon polis şöbəsinin rəisi, polis polkovniki Nadir Məmmədovun və MSK katibliyinin əməkdaşı Rauf İbrahimovun məruzələri dinlənilib.



Seminar iştirakçılarına seçici siyahıları ilə işin təşkili, seçkiqabağı təşviqatın aparılmasına şərait yaradılması, bildirişlərin seçicilərə çatdırılması və sair bu kimi istiqamətlərdə yerli icra və bələdiyyə qurumlarının rolu, onların seçki komissiyaları ilə səmərəli qarşılıqlı əlaqələrinin qurulması, həmçinin seçki hüququ və onun təminatının qanunvericilik əsasları, seçki komissiyaları və məhkəmələr tərəfindən seçki hüququnun qorunması mexanizmləri barədə ətraflı məlumat verilib.

Sonra "Seçici siyahıları ilə iş qaydası" mövzusunda ilk seminar-məşğələ keçirilib. Məşğələni aparan 116 saylı Qəbələ Seçki Dairəsinin sədri Ramiz Əsədov məntəqə seçki komissiyaları sədrlərinin müzakirə olunan məsələlərlə bağlı suallarını cavablandırıb.

**Rais RƏŞİDOV,**
**Səhrab Umuyev (foto).**
**"Qəbələ"**

# "Oyun Karvanı" Qəbələdə

***Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Türkiyə Uşaq Oyunları və İdman Klubları Federasiyasının təşkilatçılığı, Azərbaycan Məktəb İdmanları Federasiyası, Azərbaycan İdman Könüllüləri İctimai Birliyi və "Mehriban Dost" layihəsinin dəstəyi ilə keçirilən "Oyun Karvanı Azərbaycanda" layihəsinin növbəti ünvanı Qəbələ rayonu olub.***



Qəbələ Olimpiya İdman Kompleksində keçirilən tədbirdə İsmayıllı, Şamaxı, Kürdəmir, Göyçay, Ağdaş və Qəbələ rayonlarından 8-12 yaş arasında 200-dək uşaq iştirak edib.

Tədbirin açılış mərasimində rayon gənclər və idman İdarəsinin rəisi Fəxri Soltanov və olimpiya idman kompleksinin direktoru Mətləb Kərimov çıxış edərək, ölkənin 7 regionunu əhatə edəcək layihə barədə məlumat veriblər.

Sonra uşaqlar şən musiqi sədaları altında müxtəlif əyləncəli oyunlara qatılaraq bacarıqlarını nümayiş etdiriblər.

Tədbirin sonunda uşaqlara müxtəlif hədiyyələr verilib.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**Səhrab Umuyev (foto).**
**"Qəbələ"**

# Fədakar əmək əvəzsiz qalmır

"Dünyada hər şeyə qiymət vermək mümkündür, lakin müəllim əməyinə qiymət vermək mümkün deyil"–deyib, dahi yunan filosofu Sokrat. "Mən dünyada müəllimdən yüksək ad tanımıram"–deyib, ulu öndər Heydər Əliyev.

Bu yazımda belə yüksək ada layiq müəllimlərdən biri haqqında qısaca məlumat verəcəyəm. Bu, Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Sədaqət Kazımovadır. Bum qəsəbəsində ziyalı ailəsində böyüyüb boya-başa çatmış Sədaqət xanım 1980-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakultəsini Azərbaycan dili və ədəbiyyatı müəllimi ixtisası ilə yüksək göstəricilərlə başa vurmuşdur. 1981-ci ildən Qəbələ şəhər 2 nömrəli tam orta məktəbində müəllimliyə başlayan Sədaqət xanım 40 ilə yaxındır ki, bu təhsil ocağında şagirdlərə doğma dilimizin və ədəbiyyatımızın zənginliklərini öyrədir.

Sədaqət Kazımova öz ixtisasına vurğunluğu, şagirdlərinə göstərdiyi əsil pedoqoq münasibəti ona məktəblilərin əsil hörmət və sevgisini qazandırmışdır. Onun dərs dediyi şagirdlər rayon və respublika müsabiqələrində, buraxılış və qəbul imtahanlarında yüksək göstəricilər əldə edirlər.

Qabaqcıl müəllimin vaxtilə dərs dediyi şagirdlər arasından müəllimlər, həkimlər, alimlər, hərbçilər, hüquqşunaslar və sair peşə adamları yetişmişdir. Onlar sevimli müəllimlərini ehtiramla xatırlayır, imkan olanda ona baş çəkirlər.

Sədaqət Kazımovanın pedoqoji fəaliyyəti müvafiq orqanlar tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1994-cü, və 1997-ci illərdə "İlin müəllimi", 2016-cı ildə "Qabaqcıl təhsil işçisi" adına layiq görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 oktyabr 2019-cu il tarixli Sərəncamı ilə Sədaqət Kazımova Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Sədaqət xanım qabaqcıl müəllim olmaqla yanaşı gələcəyimiz üçün layiqli övladlar yetişdirmiş mehriban və qayğıkeş bir anadır.

**Təhminə MİRZƏLİYEVA,**
**məktəbin müəllimi.**